**UOT94**

# X ƏSRİN ƏRƏBDİLLİ MÜƏLLİFİ ƏBU MƏNSUR ƏS-SƏ`ƏLİBİNİN "ĞURAR ƏXBAR MULUK ƏL-FURS VA SİYARİHİM" ƏSƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

**Aytac ŞİRƏLİYEVA***

***Açar sözlər:*** *müsəlman mədəniyyəti, əs-Sə`əlibi, əlyazma, Şahnamə, Ğurar əxbar*

Orta əsrlər "müsəlman mədəniyyəti"nin əsas xüsusiyyətlərindən biri ərəb dilinin, islam təliminin təsiri altında Xilafətin (630-1258) müxtəlif bölgələrində ərəbcə yazılmış elmi əsərlərin üstünlük təşkil etməsi olmuşdur. İslam dinini qəbul etmiş xalqlar üçün ərəb dili, əsasən, Abbasilər Xilafəti (750-1258) dövründə dövlət dilinə çevrilmişdi. Yeni din və yeni dil tədricən Xorasan və Mavərənnəhr kimi böyük bölgələrin mərkəzlərində də hakim mövqe qazandı.

İslam dininin böyük bir siyasi və mədəni məkanda yayılması ərəb dilinin, ərəb elmi-ədəbi ənənələrinin genişlənməsinə, ərəbdilli elmi əsərlərin inkişafına təkan verdi. Bunun nəticəsində sonralar Azərbaycanın, Orta (Mərkəzi) Asiyanın və İranın elm xadimləri də əsərlərini ərəbcə yazmağa başlamışdılar. Ərəbcə yazılmış əsərlər həm tarixlə, həm də ədəbiyyatla maraqlanan insanların diqqətini cəlb etmiş və bu əsər müəlliflərinin əsas məqsədi müəyyən ideyaların, dövlətçilik ənənələrinin, ayrı-ayrı tarixi hadisələrin təbliği olmuşdur. Məhz bu dövrdə bir sıra əhəmiyyətli əsərlər meydana gəlmişdir.

Dövrün siyasi, ictimai, mədəni həyatını öz əsərlərində əks etdirmiş məşhur alimlərdən biri də Əbu Mənsur Əbdülmalik ibn Məhəmməd ibn İsmayıl əs-Sə`əlibidir.

Əbu Mənsur Əbdülmalik ibn Məhəmməd ibn İsmayıl əs-Sə`əlibi-Nişapuri 350-ci (961-ci) ildə Nişapur şəhərində anadan olmuşdur. Əsərlərindəki qeydlərdən məlum olur ki, o, ilk təhsilini burada almış, ərəb dilinə, ədəbiyyatına və dövrünün bütün elmlərinə dərindən yiyələnmişdi. Yaqut əl-Həməvinin (1179-1229) qeydlərinə görə, Əs-Sə`əlibinin ilk müəllimlərindən biri Bustadan olan şair Əbu Süleyman Əl-Xəttabi idi. Əs-Sə`əlibi məşhur şair və yazıçı Əbubəkr əl-Xarəzmidən də dərs almışdı (Усмонов, 2011; 20).

Əbu Mənsur Əs-Sə`əlibinin adı ilə bağlı olan elmi ədəbiyyatda müxtəlif fikirlər mövcuddur. Bu sahədə İran alimləri Əlirza Abdullahinin və Qənbərəli Rudgərin tədqiqat əsərlərini qeyd etmək lazımdır. Onlar bu barədə öz əsərlərində yazmışlar: "Müəllifin adı ابومنصور حسين بن محمد المرعشى الثعالبى(Əbu Mənsur Hüseyn bin Məhəmməd əl-Marraşi əs-Sə`əlibi), ابومنصور حسين بن محمد المرغنى الثعالبى(Əbu Mənsur Hüseyn bin Məhəmməd əl-Marğani əs-Sə`əlibi),حسين بن محمد المرغنى(Hüseyn bin Məhəmməd əl-Marğani),ابومنصور عبدالملک بن محمد  الثعالبى النيشابورى (Əbu Mənsur Əbdulmalik ibn Məhəmməd əs-Sə`əlibi Nişapuri) kimi qeyd olunmuşdur. Bu adlar arasında əsərin müəllifi kimi, əsasən,حسين بن محمد المرغنى (Hüseyn bin Məhəmməd əl-Marğani) və ابومنصور عبدالملک بن محمد  الثعالبى النيشابورى (Əbu Mənsur Əbdülmalik bin Məhəmməd Əs-Sə`əlibi Nişapuri) adları düzgün hesab olunur" (رعبداللهى.وقنبارلى.; 105).

*filologiya üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti
e-mail: shiraliyeva@rambler.ru

Əbu Mənsur əs-Sə`əlibi bir çox müsəlman ölkələrində olmuş, Məvarənnəhri, Xorasanı, Azərbaycanı, İraqı, İranı, İspaniyanı, Xarəzmi, Suriyanı, Ərəbistan yarımadasını gəzmişdi. O, dövrünün məşhur alimləri, ədibləri, hökmdarları ilə də tanış idi və bəziləri ilə dostluq edirdi.

Müxtəlif ölkələrə səyahətlər, alim, şair, ədib və dövlət xadimləri ilə tanışlıq Əbu Mənsur əs-Sə`əlibi üçün bilik mənbəyi idi. O, h.429-cu/1038-ci ildə (bəzi mənbələrə görə isə h.430-cu/1039-cu ildə) 78 yaşında ikən Nişapurda vəfat etmişdir (Усмонов, 2011; 21).

Əbu Mənsur əs-Sə`əlibinin tələbəsi və qonşusu Əl-Bəxərzi (h.467-ci/m.1074-cü il) özünün "Dumyat əl-qəsr" antologiyasında onun tərcümeyi-halını yerləşdirmiş, onu "Nişapurun Cahizi" adlandırmışdır (İslam mədəniyyətinin "qızıl dövrü" sayılan VIII-IX əsrlərdə Bağdadda yaşamış müxtəlif sahələrdə qiymətli əsərlər yazmış məşhur alim,"Cahiz" adı ilə tanınmış Əbu Osman ibn Məhbub əl-Cahiz nəzərdə tutulur – A.Ş.). Onun fikrincə, Əbu Mənsur əs-Sə`əlibi "parlayan Günəş kimi idi və onu hər kəs tanıyırdı" (Абдуллаев, 1984; 30).

Görkəmli alim Əbu Mənsur əs-Sə`əlibi zəngin elmi təcrübəsi, siyasi, elmi əlaqələri nəticəsində müsəlman xalqları üçün çox əhəmiyyətli olan tarixi və ədəbi əsərlər yaratmış, bu əsərləri ilə islam Şərqində elmin zənginləşməsində əhəmiyyətli rol oynamışdır.

Əbu Mənsur əs-Sə`əlibinin 1021-ci ildə yazdığı غرر اخبار ملوك الفرس و سيرهم("Ğurar əxbar muluk əl-furs va siyarihim") ("Fars şahları və onların həyatı haqqında seçilmiş məlumatlar") əsəri diqqəti xüsusilə cəlb edir.

O, "Fars şahları və onların həyatı haqqında seçilmiş məlumatlar" əsərini öz hamisi, ordunun baş qərargah rəisi, Nəsirəddinin oğlu Əbülmüzəffər Nasirin göstərişi ilə yazmışdır (Zotenberg, 1900; 27).

Bir çox əldə olan əlyazmalardan və qədim kitablardan məlum olur ki, bu kitabın adı mənbələrdə 6 fərqli şəkildə qeyd olunmuşdur:

1) غرر السير
2) غرر السير الملوک
3) تاريخ غرر السير
4) غرر اخبار ملوک الفرس و سيرهم
5) الغرر فی سير الملوک و اخبارهم
6) غرر اخبار الملوک و سيرهم (رعبداللهی.وقنبارلی.;107).

Əbu Mənsur əs-Sə`əlibinin bu əsəri daha çox "Ğurar əxbar muluk əl-furs va siyarihim" ("Fars şahları və onların həyatı haqqında seçilmiş məlumatlar") adı ilə məşhurdur. Biz əsərin 1900-cu ildə fransız alimi Herman Zotenberqin müqəddiməsi ilə Parisdə nəşr olunmuş, Paris Milli Kitabxanasında saxlanılan1891-ci il nüsxəsindən istifadə etmişik.

Herman Zotenberq "Ğurar əxbar muluk əl-furs va siyarihim" əsərinə yazdığı müqəddiməsində qeyd etmişdir ki, əsər Kəyumərsdən Yezdəgirdə qədər İran (Sasani – A.Ş.) şahənşahlarının tarixindən, İsrailin peyğəmbər övladları haqqında faktlardan, maraqlı hadisələrdən, fironlardan, İsrailin digər hökmdarlarından, Yəmən, Suriya ərəblərindən, İran (Sasani – A.Ş.) hökmdarlarından, bəzi yunan siyasi xadimlərindən, hind, türk, Çin hökmdarlarından, onların inanc və adətlərindən bəhs edir (Zotenberg, 1900; 38-39, 41, 43-45, 53-54).

Əsərdə Məhəmməd peyğəmbərin (s.a.s) həyatından, xəlifələrdən, Əməvi sarayının şahzadələrindən, Abbasi xəlifələrindən, Əbu Müslimdən, Bərməkilərdən, Tahirilərdən, Sistan şahzadələrindən, Samanilərdən, Həmdanilərdəndə bəhs edilir. Əsərdə "şöhrətli əmir" Əbülmuzəffər ibn Nəsirəddinin və Əbu Mənsur Səbuqtəkinin hökmdarlıq tarixindən bəhs olunur, "Şərqin sultanı, xristian başçılarının dostu olan sultan Əbülqasim Mahmud ibn Səbuqtəkin" haqqında məlumat verilir, onun

"ali məqamları, nəcib keyfiyyətləri", yürüşləri, qələbələri, zabit və vəzirləri yad edilir. Burada "şöhrətli şahzadənin" şəxsiyyətindən, onun "mərdlik nişanələrindən", sərkərdəlik qabiliyyətindən, istedadından bəhs edilir (Zotenberg, 1900; 36-39, 40-43, 45).

Əsər müəllifi Qəznəvilərin "böyük müharibələrindən və parlaq qələbələrindən", Sultan Mahmudun Hindistana yürüşlərindən də bəhs etməyi unutmamışdır.

Əbu Mənsur əs-Sə`əlibi hadisələri, məlumat qaynaqlarını xüsusi qayğı ilə hər yerdə qeyd etmiş, görkəmli alimləri, yüksək vəzifəli məmurları, vəzirləri və öz dövrünün hökmdarlarını tanıtdırmış, onlar haqqında ətraflı məlumat vermişdir. O, görkəmli şəxsiyyətlərin dəyərli sözlərindən iqtibaslar gətirmiş, yeri gəldikcə onlarla bağlı olan məlumatları təqdim etmişdir (Zotenberg, 1900; XI-XII).

Əbu Mənsur əs-Sə`əlibinin əsərini xatirə üslubunda yazmasına baxmayaraq, o, təkrarı sevirdi. O, əsərlərinin çoxunda eyni dil üslubunu nümayiş etdirir, eyni metaforadan, təsəvvürlərdən, Qurandan əxz olunmuş eyni ifadələrdən, eyni hadisələrdən istifadə edir. Əsər müəllifi bəzi hadisələri, ritorik ifadələri, oxşatmaları digər mənbələrdən əxz edərək istifadə etmişdir. Bu janrın bir çox nümunələrinə Əbu Mənsur əs-Sə`əlibinin "Yətimət ət-dəhr", "Mubhic", "Lətaif əl-Ma`arif", "Təmsil və-l-Mühadara", "Nəsc ən-Nəzm", "Xass əl-xass" və xüsusilə "Sihr əl-bəlağa" əsərlərində də rast gəlmək mümkündür.

Əbu Mənsur əs-Sə`əlibinin əsəri Makedoniyalı İsgəndərə və Sasani sülaləsinin hökmdarlarına aid edilən kəlamlarla və ifadələrlə yekunlaşır. Bu hökmdarlara aid olan kəlamlara və ifadələrə Sasani saraylarında saxlanılan salnamələrdə, məcmuələrdə, müxtəlif ərəb müəlliflərinin əsərlərində də təsadüf edilir. Əs-Sə`əlibinin "Ğurar"da təsvir etdiyi bəzi hadisələr və istilahlar onun digər əsərlərində də vardır."Təmsil əl-Mühadara", "Lətaif əl-Maarif", "Əhasin əl-Məhasin", "Xass əl-Xass", "Bərd əl-Əkbad", "İcaz və-l-İdcaz" əsərlərində də təsadüf olunur (Zotenberg, 1900;15).

Əs-Sə`əlibinin əsərlərində bəzən şəxsiyyətlərin adları, kəlamların müəllifləri fərqli şəkildə verilir. "Ğurar"da bəzi deyimlər, atalar sözləri əfsanəvi "Bəhram şah"ın adı ilə, "İcaz" əsərində isə Bəhram şahın atası İsfəndiyarın adı ilə bağlanır. Onun "İcaz" əsərində Ərdəşirə (III əsr) aid olan bəzi hadisələr "Ğurar"da Xosrov Ənuşirəvana (VI əsr) aid edilir. Bu variantlardan belə görünür ki, Əbu Mənsur əs-Sə`əlibi diqqətsizlik etmiş, bir neçə əsərdən əxz etdiyi məlumatları və yaxud kəlamları fərqli şəkildə təsvir etmişdir (Zotenberg, 1900;18-19).

Əs-Sə`əlibinin təsvir etdiyi hadisələri iki qrupa bölmək olar: 1) Müəllifin əsasən öyrəndiyi, şahidi olduğu hadisələrin salnaməsi; 2) Digər əsərlərdən əxz edilmiş məlumatlar.

Əbu Mənsur əs-Sə`əlibi "Ğurar əxbar muluk əl-furs va siyarihim" əsərinin müxtəlif hissələrində Əbülqasim Firdovsinin, Həmzə İsfahaninin, İbn Xordadbehin, Ət-Təbərinin, Əl-Məqdisinin və digər müəlliflərin əsərlərindən istifadə etmiş və iqtibaslar etmişdir (Крачковский, 1956; 63,67-68; Zotenberg, 1900; XIX-XXIII).

Əbu Mənsur əs-Sə`əlibinin İbn Xordadbehin əsərindən əxz etdiyi məlumatlar Zərdüşt (Zotenberg, 1900; 257-262) haqqında əfsanəvi tarixə, Bəhramın və yaxud Ərdəşirin fəaliyyətinə aiddir (Zotenberg, 1900; 378).

Əsər müəllifi Bəhram Gura və Məzdəkin ölümünə dair geniş məlumatları da İbn Xordadbehin əsərindən əxz etmişdir (Zotenberg, 1900; 556, 596-603).

Əbu Mənsur əs-Sə`əlibi bu hadisələri təsvir edərkən ət-Təbərinin "Tarix" əsərindən də bəhrələnmişdir. Çünki onun Sasani hökmdarlarının həyatı və fəaliyyəti ilə bağlı olan bir çox məlumatları ət-Təbərinin məlumatları ilə eynidir (F.Əsədov, 2005; 106-111).

Əbu Mənsur əs-Sə`əlibi Zərdüştün soykökü ilə bağlı olan ənənələri, Viştasfın qayıdışını ət-Təbərinin əsərinə istinadən təsvir etmişdir.

Əs-Sə`əlibi İsgəndər Zülqərneynlə əlaqəli olan hadisələri təsvir edərkən Əbülhəsən Əli ibn Əbdüləziz Əl-Curcaninin “Simaru-l-qulub" əsərindən istifadə etmişdir. O, Maninin həyatı və fəaliyyətindən, onun dini nəzəriyyəsindən bəhs edərkən Əl-Məqdisinin “Bədəvilər və tarix kitabı”ndan iqtibaslar etmişdir. Əs-Sə`əlibi hindlilərin adət-ənənələrindən və xristianlardan bəhs edərkən əsərinin birinci fəslinin əvvəlində əl-Məqdisinin əsərinin adını bütöv şəkildə qeyd etmiş və bu əsər haqqında məlumat vermişdir (Zotenberg, 1900; 501).

Herman Zotenberq “Histoire des Rois des Perses par Abou Mansour ‘Abd Al-Malik Ibn Mohammad Ibn Ismail Al-Tha’alibi” əsərinə yazdığı müqəddiməsində əs-Sə`əlibinin “Ğurar əxbar muluk əl-furs va siyarihim” əsərini Əbülqasim Firdovsinin “Şahnamə”si ilə müqayisə etmişdir.

Əbu Mənsur əs-Sə`əlibinin əsərindən görünür ki, o, Əbülqasim Firdovsinin “Şahnamə” poemasından xeyli faydalanmışdır. Bu əsərlərin müqayisəsindən belə bir nəticə çıxır ki, əs-Sə`əlibinin əsərinin bəzi hissələri “Şahnamə” ilə eyni mənbədən qaynaqlanır. Müxtəlif müəlliflərdən birbaşa əxz edilmiş və onların adından iqtibas edilmiş hissələr Əbu Mənsur əs-Sə`əlibinin başqa əsərlərində də mövcuddur. Əsərdə bu oxşarlıqları onunla izah etmək olar ki, Əbülqasim Firdovsi və Əbu Mənsur əs-Sə`əlibi eyni tarixi mənbədən qaynaqlanan müxtəlif tarix əsərləri ilə tanış idilər.

Herman Zotenberqin araşdırmalarına əsaslanaraq qeyd etmək olar ki, Əbu Mənsur əs-Sə`əlibinin əsərində Zöhhak şah haqqında olan bir neçə hekayə Əbülqasim Firdovsinin “Şahnamə” poemasında yoxdur. Belə ki, Zöhhakın etdiyi cadu ilə bağlı olan ənənələr və üsullar Əbülqasim Firdovsinin əsərində təsvir olunmamışdır (Firdovsi, 1986; 59-87).

İran əfsanələrinə görə, Zöhhak Pişdadilər sülaləsinin beşinci hökmdarı olmuş və Cəmşiddən sonra taxta çıxmışdır. Ərəb olduğu üçün onu (Zöhhakı– A.Ş.) “tazı” (yəni “ərəb Zöhhakı” – A.Ş.) adlandırırdılar. Rəvayətə görə, onun çiyinlərində iki ilan varmış və hər gün onlara iki insan beyni yedirərmişlər. Xalq Dəmirçi Gavənin başçılığı ilə bu zalıma qarşı üsyan etmiş, onu taxtdan salmış və Firidunu şah seçmişdi. Zöhhak Şərq ədəbiyyatında “qəddarlığın və zülmün rəmzi” kimi təsvir edilir.

Əbu Mənsur əs-Sə`əlibinin təsvir etdiyi Firidunun uşaqlıq hekayəti Əbülqasim Firdovsinin “Şahnamə” poemasındakı hekayətdən fərqlidir. Əbülqasim Firdovsinin Firidunun iki qardaşının qətli, onun Cəmşidin oğulları və Kundravla qarşılaşması, Zöhhakın Hindistandan qayıtması, Firidunun anası, onun üç oğlu, onların Yəmən şahının üç qızı ilə evlənməsi haqqında hekayələri Əbu Mənsur əs-Sə`əlibinin əsərində yoxdur (Zotenberg, 1900; XXVIII).

“Ğurar əxbar muluk əl-furs va siyarihim”də qeyd olunan bəzi hadisələr isə əksinə, Əbülqasim Firdovsinin “Şahnamə”sində öz əksini tapmamışdır: Oxatan Ariş, Zav ənənələri, Zavabi şəhəri, Keyqubadın şahlığı haqqında məlumatlar bu qəbildəndir.

Bəzi əfsanəvi, tarixi hadisələr Əbülqasim Firdovsinin “Şahnamə”sində təsvir olunduğu halda, əs-Sə`əlibinin əsərində öz əksini tapmamışdır: Keykavusun Mazandarana (Təbəristana) yürüşü, Rüstəmin yeddi sərgüzəşti və Keykavusdan azad edilməsi, İblisin müğənni cildinə girməsi və s. haqqında rəvayətlərə əs-Sə`əlibinin əsərində rast gəlmirik.

Əbülqasim Firdovsinin nəql etdiyi digər rəvayətlər, hekayətlər (Siyavuşun Piranın qızı ilə evlənməsi, oğlu Firidunun doğulması, Kangdizin bünövrəsinin qoyulması, Karsevazın Siyavuşgirdə–Siyavnabada ilk səyahəti, Siyavuşun turanlılarla döyüşü, onun və Keyxosrovun Turandakı sərgüzəştləri) Əbu Mənsur əs-Sə`əlibinin əsərində yoxdur (Zotenberg, 1900; XXIX-XXXI).

Əbu Mənsur əs-Sə`əlibinin əsərində olan III Daranın Makedoniyalı İsgəndərə məktubu, ona nizə və cüzam (xəstəlik) göndərməsi, İsgəndərin evlənməsi epizodları “Şahnamə” poemasında yoxdur. İsgəndərin III Daranın düşərgəsində keçirdiyi günlər, III Daranın Həmədən sarayının iki xidmətçisi tərəfindən öldürülməsi, ölümündən öncə III Daranın İsgəndərə ünvanladığı xahişləri Əbülqasim Firdovsinin “Şahnamə”sindən fərqli şəkildə təsvir olunmuşdur.

III Daranın elçisinin İsgəndərin yanına gəlməsi, onun İsgəndərə məktubu, III Daranın məktubuna İsgəndərin cavabı, Əhəməni hökmdarının öz sərkərdələri tərəfindən öldürülməsi, İsgəndərin İstəxrdə taxta çıxması və digər hadisələr Nizami Gəncəvinin "İsgəndərnamə" poemasının "Şərəfnamə"qismində dolğun şəkildə təsvir edilmişdir (Gəncəvi Nizami, 2004; 110-134,185-190).

Əbu Mənsur əs-Sə`əlibinin əsərindəki Ənuşirəvanın (Xosrov Ənuşirəvanın–A.Ş.) hekayətində məzdəkilərin edam edilməsi, Məzdəkin ölümü Əbülqasim Firdovsinin "Şahnamə"sində olan məlumatlardan fərqlidir. Bəhram Çubinin Əbülqasim Firdovsinin poemasında təsvir olunan, əsərin böyük bir hissəsini əhatə edən sərgüzəştləri, işğalları haqqında məlumatlar əs-Sə`əlibinin əsərində yoxdur. Rüstəmin qiyamı, Pərvizin şahənşahlığı haqqında bir çox hekayələr də bizim mənbədə öz əksini tapmamışdır (Zotenberg, 1900; XXXIX-XL).

Bu müqayisələrdən belə bir nəticəyə gələ bilərik ki, bizim mənbənin bəzi hissələri digər mənbələrdən qaynaqlansa da, əs-Sə`əlibi bu hekayələri fərqli şəkildə təsvir etmişdir.

Əbu Mənsur əs-Sə`əlibinin "Ğurar əxbar muluk əl-furs va siyarihim" əsərinin əhəmiyyətini artıran cəhətlərdən ən mühümü bu mənbədə Azərbaycan haqqında çox maraqlı məlumatların olmasıdır. Əsərdə Azərbaycan xalqının siyasi tarixi, ölkənin şəhərləri, müdafiə tikililəri, digər xalqlarla əlaqələri, dini həyatı ilə sıx şəkildə bağlı olan qiymətli məlumatlar mövcuddur.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. 7 cilddə.II cild (III-XIII əsrin I rübü) (2007). Bakı: Elm
2. Bünyadov Z.(2007). Azərbaycan VII-IX əsrlərdə. Bakı: Şərq-Qərb
3. Firdovsi Ə.(1986). Şahnamə. Tərcümə M.Əlizadə. Bakı: Yazıçı
4. Gəncəvi Nizami.(2004). Seçilmiş əsərləri. İsgəndərnamə. Xosrov və Şirin. Bakı: "Lider" Nəşriyyatı
5. Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar / Məsul redaktor: F.Əsədov (2005). Bakı: Nurlan
6. Абдуллаев И.(1984). Поэзия на арабском языке в средней Азии и Хорасане X – начала XI вв. Ташкент: Фан.
7. Буниятов З.М.(1964). Обзор источников по истории Азербайджана. Источники арабские. Баку: Изд-во АН АзССР.
8. Дашков С.Б.(2008). Цари Царей – Сасаниды. Иран III-VII вв. в легендах, исторических хрониках и современных исследованиях. Москва: СМИ–АЗИЯ.
9. Кеннеди Х.(2010). Великие арабские завоевания / Пер. с англ. Г.Соловьевой. Москва: АСТ.
10. Крачковский И.Ю.(1956). Общие соображения о плане истории арабской литературы //Избранные сочинения. Т.2. Москва-Ленинград: Изд-во АН СССР.
11. Усмонов Ф.И.(2011). Абу Мансур ас-Саалиби и его «Татиммат ал-йатима» как источник по арабоязычной персидско-таджикской поэзии X века. Душанбе : АНРеспублики Таджикистан.
12. Zotenberg H. (1900). Histoire des Rois des Perses par Abou Mansour 'Abd Al-Malik Ibn Mohammad Ibn Ismail Al-Tha'alibi. Paris: Imprimerie nationale.

13. عبداللهی.ع و قنبارلی.ر.غرر السیر' بررسی درباره نام اصلی و مولف أن. تاریخ و تمدن اسلام' سال دهم' شماره نوزدهم' بهار و تابستان.تهران. ۱۳۹۳.ه .ش.ص۱۰۵-۱۲۰

**_Резюме_**

**_АйтаджШиралиева_**

**_Сравнительный анализ произведения арабоязычного автора X века Абу Мансура ас-Саалиби «Гурарахбармулук ал-фурсвасийарихим»_**

**_Ключевые слова:_** _мусульманская культура, ас-Саалиби, рукопись, Шахнаме, Гурарахбар_

Абу Мансур ал-Хусайн ибн Мухаммад ас-Саалиби (961-1038) родился в Нишапуре. Здесь он получил начальное образование, глубоко изучил арабский язык и арабскую литературу. Ас-Саалиби побывал во многих странах и городах Аравийского полуострова, Испании, Иране, Азербайджане, Хорасане, Маурье, Хорезме и др. Он автор составленного около 1021г. четырехтомного труда «Гурарахбармулюк ал-фурсвасийарихим» («Отборные сообщения о царях персов и их жизнеописаниях»).

В этом произведении имеются сведения об Азербайджане во время правления Сасанидов; о Зороастре и о распространении его учения; о манихействе и маздакизме; о войнах БахрамаГура с тюркским хаганом на территории Азербайджана; о строительстве городов и восстании БахрамаЧубина в Азербайджане; о сражениях арабов с войсками Азербайджана под командованием Рустама ал-Азери.

**_Summary_**

**_Aytaj Shiraliyeva_**

**_Comparative analysis of the work of the 10th century arabic-speaking author Abu Mansur as-Saalibi "Ghurar akhbar muluk al-furs wa siyarihim"_**

**_Keywords:_** _Muslim culture, as-Saalibi, manuscript, Shahname, Ghurar akhbar_

Abu Mansur al-Husaynibn Muhammad as-Saalibi (961-1038) was born in Nishapur. Here he received his early education, deeply learned Arabic and arabic literature. As- Sa'alibi visited many countries and cities of the Arabian Peninsula, Spain, Iran, Azerbaijan, Khorasan, Maurya, Khorezm, etc. He is the author made up of about 1021 four-volume work "Ghurarakhbar muluk al-furs va siyarihim" (Persian shahs and the selected information about their lives).

In his work there is information about Azerbaijan during the reign of Sassanid, about Zoroaster, spreading of its education, about manichaeism and mazdakism, the war between Bahram Gur and Turkish Khakan in Azerbaijan territory, about the construction of cities and the revolt of Bahram Chubin in the territory of Azerbaijan, and the resistance movement headed by Rustam al-Azery against Arabs is scrutinized in this chapter.